# 25 yaşlı vergi sisteminin əsas missiyası

## Prezident İlham ƏLİYEV: "Hazırda başlıca hədəfimiz iqtisadiyyatımızı bundan sonra daha da şaxələndirmək və dayanıqlı inkişaf modelini təkmilləşdirməkdir"

**Vergi sistemi ölkəmizin inkişafında müstəsna rol oynayır. Vergi işçiləri isə dövlətin iqtisadi siyasətinin həyata keçirilməsində mühüm funksiyanı yerinə yetirirlər. Onlar vergi ödəyiciləri ilə effektiv əməkdaşlıq, vergi ödəmələrinin düzgün və vaxtında həyata keçirilməsini təmin edirlər. Üstəlik də iqtisadi sabitliyin və sosial ədalətin qorunması işində önəmli bir missiyanın icraçıları olaraq vergi sistemində önəmli yer tuturlar.**

Azərbaycanın müasir vergi sisteminin əsası 1991-ci ilin oktyabrında qoyulub. Həmin tarixdən Baş Dövlət Vergi Müfəttişliyi kimi fəaliyyətə başlayan qurumun əsasında 2000-ci ildə Vergilər Nazirliyi yaradılıb. 23 oktyabr 2019-cu ildə isə Prezident İlham Əliyevin fərmanı ilə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə çevrilib. Ötən 25 ildə iqtisadiyyatda başlanan inkişaf meyillərini və sahibkarlara verilən dövlət dəstəyini sürətləndirmək məqsədilə ölkədə biznesin fəaliyyəti üçün cəlbedici vergi mühiti yaradılmışdır. Vergi yükü azaldılmış, vergilərin sayı və dərəcələri optimallaşdırılmış, sahibkarlıq üçün əlverişli iqtisadi mühit formalaşdırılmışdır. Ölkəmizin sosial-iqtisadi inkişaf hədəflərinə uyğun olaraq, müxtəlif vaxtlarda vergi islahatları paketi hazırlanmış və bununla bağlı Vergi Məcəlləsində dəyişikliklər edilmişdir.

Vergi sistemində aparılmış islahatlar vergi daxilolmalarının davamlı şəkildə artmasını təmin edir. Bunun effektiv nəticələrindən biri əmək bazarında son illər müşahidə edilən leqallaşmadır. 2019-cu ildən etibarən qeyri-neft sektorunun özəl bölməsi üzrə fiziki şəxslərin aylıq əməkhaqqının 8 min manatadək olan hissəsi gəlir vergisindən 7 il müddətinə azad edilmişdir. Aparılan islahatlar, vergi inzibatçılığında tətbiq olunan yeni yanaşma və mexanizmlər iqtisadiyyatda şəffaflaşmanı keyfiyyətcə yeni bir mərhələyə qaldırmışdır. Hazırda bütün fiskal yığımların əhəmiyyətli hissəsini məhz vergi orqanları təmin edir

Azərbaycanın vergi sistemində formalaşmış bu ənənələr yeni çağırışlar şəraitində müasir transformasiya yoluna qədəm qoyub. Dövlətimizin milli inkişaf və sosial-iqtisadi inkişaf prioritetləri çərçivəsində Dövlət Vergi Xidməti tərəfindən də inkişaf strategiyası hazırlanıb. Ortamüddətli dövrdə həyata keçiriləcək strategiya vergi yığımlarını təmin etməklə yanaşı, vergi inzibatçılığının sadələşdirilməsinə, vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimad mühitinin formalaşmasına, könüllü əməletmənin təşviqinə və təşkilatın hərtərəfli inkişafı üçün səriştələrin artması istiqamətində fəaliyyətlərin icrasına yönəldilib.

Bu gün 25 illik inkişaf yolu qət edən Azərbaycanın vergi sistemi üçün yeni hədəflər müəyyənləşdirilib. Bu hədəflərin nədən ibarət olduğu, ona çatmağın yolları fevralın 13-də İqtisadiyyat Nazirliyində "Vergi Xidməti-25: Davamlı inkişaf və effektiv transformasiya" mövzusunda keçirilən forumun gündəliyində yer alıb. Tədbirdə əsasən 25 illik tarixə nəzər salınaraq vergi sistemində reallaşdırılan islahatlar barədə danışılıb. Bu sahədə son illər əldə edilən nəticələr, "Dövlət Vergi Xidmətinin 2025-2028-ci illər üzrə Strategiyası", gələcək vergi siyasətinin istiqamətləri və s. barədə məlumat verilib. Bildirilib ki, 25 illik tarixə malik vergi sistemi hazırda "kölgə iqtisadiyyatı" ilə mübarizə, iqtisadiyyatda şəffaflığın artırılması, haqlı rəqabətin qorunması, intizamlı vergi ödəyicilərinə fərqli münasibət göstərilməsi, dövlətin vergi tənzimləmə alətlərindən fəal istifadəsi, sahibkarlığın dəstəklənməsi kimi yeni yanaşmalarla fəaliyyət göstərir. Faktlara müraciət edək: 2024-cü ildə vergi daxilolmalarının həcmi 15,8 milyard manatı keçib, vergi gəlirləri 2019-cu ilin əvvəli ilə müqayisədə 2,1 dəfədən çox artıb, Dövlət Vergi Xidmətinin xətti ilə toplanan fiskal yığımlar 22,8 milyard manata çatıb, xidmət bütün fiskal yığımları 77 faizindən çoxunu təmin edib. Aktiv vergi ödəyicilərinin sayı isə 2019-cu illə müqayisədə 1,8 dəfə artaraq 2024-cü ildə 806,9 min olub. Bu göstəricilər həyata keçirilən iqtisadi islahatların, səmərəli vergi inzibatçılığının və əlverişli biznes mühitinin təmin edilməsinin, cəmiyyətdə vergi mədəniyyətinin yüksəlməsinin nəticəsidir.

Prezident İlham Əliyev forumun iştirakçılarına ünvanladığı müraciətdə infrastruktur layihələrinin icra edilməsindən, müxtəlif sahələrdə rəqabət qabiliyyətini artırmağa yönəlmiş islahatların həyata keçirilməsindən, dayanıqlı və innovativ iqtisadiyyat qurmaqla yanaşı, xarici investisiyalarım cəlb olunmasından, habelə yerli istehsalın artırılmasından söz açıb: "Hazırda başlıca hədəfimiz iqtisadiyyatımızı bundan sonra daha da şaxələndirmək və dayanıqlı inkişaf modelini təkmilləşdirməkdir. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" yaxın gələcəkdə inkişaf konsepsiyamızın əsasını təşkil edir. Davamlı güclənən rəqabətqabiliyyətli iqtisadiyyatın, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyətin qurulması, ölkəmizin rəqabətli insan kapitalına söykənən müasir innovasiyalar məkanına və "yaşıl artım" ölkəsinə çevrilməsi, işğaldan azad edilmiş ərazilərimizin yenidən məskunlaşdırılması qarşımızda duran əsas prioritetlərdir. Bu milli prioritetlərin hər biri qarşılıqlı və əlaqəli şəkildə icra edildikdə yüksək nəticələr verəcəkdir".

Tədbirdə yer alan fikirlərdən biri də Prezident İlham Əliyevin həyata keçirdiyi qətiyyətli və düşünülmüş siyasət əsasında ölkə iqtisadiyyatının inkişaf etməsi, dövlətin maliyyə təminatının artması, ölkəmizin beynəlxalq ticarətdə liderliyinin güclənməsi oldu. Bildirilib ki, belə fundamental işlərin həyata keçirilməsində vergi xidmətinin qarşısında müəyyən edilmiş vəzifələr layiqincə icra olunur. Beynəlxalq təcrübə əsasında hazırlanmış müasir xidmətlər və proqramlar, sahibkarlara dəstək tədbirləri fonunda həyata keçirilən rəqəmsallaşma prosesi, eləcə də şəffaflıq prinsipləri əsasında tətbiq edilən fəaliyyət modeli dövlət büdcəsinin formalaşmasında, vergi gəlirlərinin artırılmasında, sahibkarlığın inkişafı və investisiya mühitinin yaxşılaşmasında əhəmiyyətli rol oynayır. Vergilərdən yayınma hallarına qarşı mübarizə, beynəlxalq vergitutma tədbirlərinin təkmilləşdirilməsi sahəsində aparılan islahatlar, Azərbaycanda vergi sisteminin müasirləşdirilməsi, qlobal iqtisadiyyata inteqrasiyası və beynəlxalq ticarətin təşviqini stimullaşdırır.

Forumun sessiyalarında müzakirələr aparılıb, suallar cavablandırılıb. Çıxışlarda ölkədə yaranmış yeni iqtisadi şəraitdə biznes mühitinin dəstəklənməsi, iqtisadi idarəetmənin yeni çağırışlara uyğun həyata keçirilməsi və vergi inzibatçılığının təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər müsbət qiymətləndirilib, islahatlara dair təkliflər səsləndirilib. Tədbirdə həmçinin 2018-2024-cü illərdə ölkəmizin makroiqtisadi artımı, eləcə də qeyri-neft sektorunun böyüməsi, vergi daxilolmalarının qeyri-neft ÜDM-də xüsusi çəkisinin yüksəlməsi, əmək müqavilələrinin sayının artması və digər göstəricilər barədə təqdimat nümayiş olunub.

*Züleyxa NADİRQIZI,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.-15 fevral (№34).- S.6.